*UOT 159.9*

***Rasif Rəfayel oğlu Müzəffərov***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Odlar Yurdu Universiteti*
*https://orcid.org/my-orcid?orcid=0009-0001-5920-5225*

# DƏYİŞƏN ŞƏRAİTDƏ ŞƏXSİYYƏTİN ÜZLƏŞDİYİ SİTUASİYALARIN XÜSUSİYYƏTLƏRİ

***Расиф Рафаэль оглы Музаффаров***
*диссертант по программе доктора философии*
*Университет Одлар Юрду*

# ОСОБЕННОСТИ СИТУАЦИЙ, С КОТОРЫМИ СТАЛКИВАЕТСЯ ЛИЧНОСТЬ В ИЗМЕНЯЮЩИХСЯ УСЛОВИЯХ

***Rasif Rafael Muzaffarov***
*doctorial student in the program of doctor of philosophy*
*Odlar Yurdu University*

# CHARACTERISTICS OF SITUATIONS FACED BY PERSONALITY IN CHANGING CONDITIONS

**Xülasə.** Məqalədə şəxsiyyətin dəyişən şəraitə adaptasiyasının situasiyalarla qarşılıqlı əlaqəsi aydınlaşdırılır. Müxtəlif xarakterli situasiyaların şəxsiyyətin davranışına və fəaliyyətinə necə təsir göstərməsi izah edilir. Bu istiqamətdə problemli, həlli çətin, böhranlı, münaqişəli və d. situasiyaların xüsusiyyətləri açıqlanır. Şəxsiyyətin bu kimi situasiyaların yaratdığı şəraitə uyğunlaşma çətinlikləri göstərilir və həlli yolları izah edilir.

***Açar sözlər:*** *dəyişən şərait, çətin situasiya, problemli situasiya, emosional - gərgin situasiya, münaqişəli situasiya, peşəkar inkişafı ləngidən situasiya, adaptasiya*.

**Резюме.** В статье уточняется взаимодействие адаптации личности к изменяющимся условиям с ситуациями. Объясняется, как ситуации различного характера влияют на поведение и деятельность личности. В этом направлении возникают проблемные, трудноразрешимые, кризисные, конфликтные и другие ситуации, раскрываются их особенности. В статье показаны трудности адаптации личности к условиям, создаваемым такими ситуациями, и объяснены пути их решения.

***Ключевые слова:*** *меняющиеся условия, трудная ситуация, проблемная ситуация, эмоционально-напряженная ситуация, конфликтная ситуация, ситуация, тормозящая профессиональное развитие, адаптация*

**Summary.** The article clarifies the interaction of personality adaptation to changing conditions with situations. It is explained how situations of different nature affect the personality's behavior and activities. In this direction, problematic, difficult to solve, crisis, conflict, etc. the characteristics of the situations are revealed. The difficulties of adapting the personality to the conditions created by such situations are shown and the solutions are explained.

***Key words:*** *changing conditions, difficult situation, problem situation, emotional - tense situation, conflict situation, situation that slows down professional development, adaptation*.

Yaşından, cinsindən, fərdi xüsusiyyətlərindən, təhsilindən, karyerasından asılı olmayaraq hər bir insan hadisələr içərisində yaşayır. Onlar, sadəcə məzmun və quruluş baxımından biri-birindən fərqlənir: sosial hadisələr, psixoloji hadisələr, siyasi hadisələr, fiziki, fizioloji, psi-

xoloji hadisələr və s. Onların hər biri bizə fərqli yollarla təsir göstərərək müvafiq qaydada, tərzdə davranmağı məcbur edir. Real həyatda "hadisə", vəziyyət", "şərait", "hal" və d. adlandırdığımız bu proseslərə psixologiyada - "situasiya" deyilir.

Fəlsəfi yanaşmalarda "situasiya" şəxsiyyətin mahiyyətini ifadə edən fəaliyyət və ünsiyyət sahəsində üzləşdiyi hadisələr, vəziyyətlər kimi izah edilir. Həmin yanaşmalarda belə bir izah verilir: situasiyaya şəxsiyyəti qərarvermə zərurəti ilə üz-üzə qoyaraq onu düşündürür. Şəxsiyyəti əmələ gətirən quruluşları canlandırır, fəallaşdırır, situasiyanın həllinə cəlb edir. Məhz belə vəziyyətlərdə şəxsiyyətin daxili və xarici potensialı üzə çıxır. Bir sözlə, *"situasiya insanın daxili hisslərinin açarıdır. Situasiyaların məzmunu onun reallıqla nə dərəcədə uyğun olmasını ifadə edir" [7].*

"Situasiya" anlayışı ilə bağlı aparılan araşdırmaların başlanğıcı 1917-ci ildə K. Levin tərəfindən qoyulmuşdur. Onun "sahə nəzəriyyəsi"-nin əsasında insanın "psixoloji sahə"si durur. K. Levin psixoloji sahəni "indi və burada" anlamında izah edirdi. Bildirirdi ki, hərəkət insanın yerləşdiyi mühiti əhatə edən və mənalandıran real vəziyyətdən əmələ gəlir [1, s. 290].

Sonralar K. Levin "sahə" anlayışını bir neçə qatlara bölərək "yaşayış məkanı" ilə əvəz etdi. İnsan və onu əhatə edən dünya arasında vəhdət olması fikrinə kökləndi. Yəni, fərd və onun qavradığı dünya vahid vektor sahəsini təmsil edir: insan tələbatlarının spesifikliyi onun dərk etdiyi və həyata keçirdiyi hər bir işin mahiyyəti ilə müəyyənləşir, insanın yaşayış sahəsi özü və içərisində olduğu mühitdir.

Bundan başqa, K. Levin iddia edirdi ki, məqsədli, iradi olaraq baş verən hər hansı bir psixi hadisə konkret subyektin və konkret mühitin vəhdəti kimi qəbul edilməlidir. İnsan davranışı, K. Levinə görə, şəxsiyyətə təsir edən mühitin xüsusiyyətləri ilə deyil, həm şəxsiyyəti, həm də onun psixoloji mühitini özündə birləşdirən spesifik bütövlüyü müəyyən edir. Onun yanaşmasında mühit - xüsusi qüvvələrin və təsirlərin xarici sahəsi, şəxsiyyət isə-stress sistemlərinin daxili sahəsidir. İnsan və ətraf mühit "yaşayış məkanı" adlandırılan eyni davranış bütövlüyünün iki qütbü, iki məqamıdır.

İ.V. Belaşeva, A.V. Suvorova, İ.N. Polşakova və b. "situasiya" anlayışını izah edərkən onun standartlarını belə səciyyələndirirlər: *"Situasiya" anlayışı (lat. situs -mövqe, yerləşmə) insan davranışından bəhs edən elmlərə güclü şəkildə nüfuz edib. Bu anlayışdan çox vaxt "ətraf mühit" anlayışının sinonimi kimi istifadə edilir. Onun haqqındakı qeyri-müəyyənliyi aradan qaldırmaqdan ötrü hər ikisi xarakterizə edilməlidir. Belə ki, "ətraf mühit" insana münasibətdə müəyyən xarici şərtlərin məcmusudur. Situasiya isə həmişə bilavasitə insanın özünü əhatə edir. Situasiyaların növləri ətraf mühitin növləri ilə (coğrafi, sosial və s.) üst-üstə düşmür. Ətraf mühit sabitlik və məruzqalma müddəti ilə xarakterizə olunur. Situasiya isə müvəqqəti və qısamüddətlidir. Ətraf mühit həmişə subyektiv olmur, situasiya isə subyektiv- "kiminsə vəziyyəti"dir. Deyilənlər onu göstərir ki, bu anlayışlar eyni deyil və onların sinonim kimi işlədilməsi yolverilməzdir" [2, s. 7].*

Daha bir izahda "situasiya" (yun. situatio – tapşırıq və vəziyyət) şəxsiyyətin müxtəlif həyat şəraitində düşdüyü vəziyyətin onun imkanlarına uyğunluğu və ya uyğunsuzluğu mənasını bildirir. Situasiya insanlar arasında bu və digər münasibətləri yaradan şərtləri, vəziyyətləri ifadə edir. S.V. Duxnovski situasiyanın psixoloji xarakterini ümumiləşdirərək bildirir ki, o ilk növbədə *"vəziyyət, yerləşmə, ya məqsədli şəkildə, ya təsadüfən tərtib edilmiş, biri-birinin ardınca qoyulmuş, yerləşdirilmiş proseslərin, bəziləri hər gün təkrarlandığından, sanki həyatımıza məskunlaşmış, həyatımızda bizimlə birgə yaşayan hərəkətlərin cəmidir" [3, s. 5].*

D. Maqnusson situasiyaların 5 səviyyəsini ayırmağı təklif edir:

*1) stimullar: xarici mühitin obyekt v hadisələri, hərəkətləri;*

*2) epizodlar, səbəb və nəticəyə malik olan xüsusi əhəmiyyətli, əlamətdar hadisələr;*

*3) xarici şərtlərlə müəyyən edilən situasiyaların fiziki, müvəqqəti və psixoloji parametrləri, situasiyanın qavranılması və şərhi stimula və epizodlara məna verir;*

*4) ətraf mühit - situasiyaların növlərini xarakterizə edən ümumi anlayış;*

5) ətraf mühit - xarici aləmin fiziki və sosial dəyişənlərinin məcmusu [8].

Təbii olaraq bir çox situasiyalar çətin, maneəli, problemli və s. xarakterli olur. Hər hansı bir şəxsiyyət üçün onu həll etmək, dəf etmək,

aradan qaldırmaq və bunun üçün ağıl, güc, səy tətbiq etmək lazım gəlir. Əgər söhbət psixoloji situasiyalardan gedirsə, yalnız bunlarla məhdudlaşmaqla kifayətlənmək bəs eləmir. Şəxsiyyət qarşılaşdığı hər hansı situasiyanı dəf etmək istəyirsə, özünü həm fikri, həm də fiziki hərəkətlərini planlaşdırmalı, strategiya qurmalı, onu mərhələlərlə tətbiq etməlidir. Əlbəttə ki, şəxsiyyət özünün fəaliyyətini və fəallığını məhdudlaşdıran, özünüqiymətləndirməsinə zərər verən, müxtəlif mənalarda azadlığı üçün təhlükə yaradan, bir sözlə, istədiyi, arzuladığı, adət etdiyi şəraitə uyğun gəlməyən, özü ilə mühitin qarşılıqlı əlaqələrində ziddiyyətə, münaqişəyə səbəb olan situasiyaları problemli situasiya kimi qəbul edəcəkdir. Belə olan halda, deməli, şəxsiyyət dəyişən şəraitdə üzləşdiyi situasiyaları həll etmək üçün situasiyanın xarakterinə uyğun həll yolu seçərək onu tətbiq etməlidir. Bizim nümunəmizdə bu münasibətlər Polis Akademiyasına yeni qəbul olunmuş kursantlar, Akademiyanın daxili rejimində qoyulan tələb və normalar, həyat və təlim şəraitidir. Bu şəraitdə kursant həm özünün fiziki həyatı, orqanizmi, həm də sosial-psixoloji, mənəvi həyatı üçün fərqli və çətin situasiyalarla üzləşməli olur. Belə şəraitdə kifayət qədər kursant özünün adət etdiyi vərdişlərə, bacarıqlara, səriştə və qabiliyyətlərə uyğun gəlməyən, onun daxili imkanları xaricində olan yeni vərdiş və bacarıqlar tələb edən situasiyalarla üzləşir.

Bu və digər səbəblərdən psixologiyada situasiya insanın gündəlik həyatını, fəaliyyət və ünsiyyət sahəsini tənzimləyən hadisələrin axarı, gedişidir. Müxtəlif xarakterli çoxsaylı situasiyalar toplanaraq şəxsiyyətin həyatını maraqlı, məzmunlu, ya da çətin və mənasız edə bilir. Bu isə şəxsiyyətin düşdüyü situasiyaların quruluşu ilə onun həyati məqsədləri, gözləmələri, maraq və meylləri arasındakı uyğunluqlardan asılı olur. Məsələn, kursantların qruplarında çoxlarının o qədər də ciddiyə almadıqları biri hələ ilk dövrlərdən özünü və üzvü olduğu qrupun çətin vəziyyətdən çıxarması hər kəsin ona münasibətini dəyişə bilir. Eləcə də, hər kəsin xarici görkəminə, sosial statusuna görə hörmət bəslədiyi başqa bir kursant yanlış qərarları və yanlış hərəkətləri ilə elə situasiyanın gedişindəcə nüfuzdan düşə bilir. Buna səbəb şəxsiyyətin hərəkəti, davranışı və fikridir. Deməli, istənilən halda dəyişən şəraitdəki situasiyalar və onların xarakteri şəxsiyyətin özəlliklərini aşkara çıxararaq adaptasiyasına bu və digər istiqamətlərdə, ya açıq, ya da dolayısı ilə təsir göstərə bilir. Məsələn, başqalarının maraqlarına uyğun olmayan münasibət göstərir, yoldaşlardan birinin ona etibar etdiyi sirri, xüsusi olaraq deyilən problemini kollektivdə yayır, rəhbərliyə digər kursantlar haqqında xəbər çatdırır, öz səhvlərini gizlətmək üçün başqalarını günahlandırır, onlara böhtan atır və s.

Beləcə, şəxsiyyətin dəyişən şəraitdə üzləşdiyi hər bir situasiya onu qərar qəbul etmək zərurəti ilə üz-üzə qoyur. Nəticədə situasiyalarda insan şəxsiyyətinin maraqları təmin olunur, tələbatları ödənilir, yeni təcrübələr qazanılır, vərdiş və bacarıqlar, səriştələr formalaşır, yeni qabiliyyətlər aşkar edilir və s. Sadalananlar situasiyaların gedişinin şəxsiyyətin istəklərinə, dəyərlərinə, tələbatlarına uyğunluğu halında baş verir. Əksinə olduqda isə, proseslər də əksinə gedir. Şəxsiyyətdə böhran yaranır. Bunun necə və hansı səbəbdən baş verdiyini müəyyən etmək üçün situasiyaların xüsusiyyətlərinə diqqət yetirmək lazım gəlir. Biz də qısada olsa bu problemi diqqət mərkəzinə gətirməyə çalışdıq.

Nəticə budur ki, dəyişən şəraitdə şəxsiyyətin üzləşdiyi situasiyaların xüsusiyyətlərini təhlil edərək bəzi ümumiləşdirmələr apara bilərik. Psixologiyada dəyişən şəraitə düşən şəxsiyyətin fəaliyyət və ünsiyyətində, o cümlədən davranışında çətinliklər yaradan amillər çoxdur. Bu amillərdən ən əsası sosial situasiyalardır. Sosial situasiya problemlidirsə, bir qayda olaraq, psixi proseslərin tənzimlənməsinə, onlar da öz növbəsində emosional-iradi sahənin, nəticədə insanı hərəkətə gətirən fizioloji quruluşların, məsələn, dayaq-hərəkət sisteminin ləngiməsinə, psixofizioloji müvazinətin zəifləməsinə, yaxud itməsinə səbəb ola bilir. Hər bir insan həyatında dəyişən şəraitlə və bu şəraitdə baş verən həm müsbət, xoş hadisələr, həm də çətin sınaqlar yaşayır. Onun üzləşdiyi situasiyaların mürəkkəbliyi fərdi təcrübə, bacarıq və qabiliyyətlərlə müəyyən edilir. Bu amillərdən asılı olaraq dəyişən şəraitlə üzləşmiş şəxsiyyət onları ya problemli, ya da problemsiz olaraq qəbul edə bilər. Bu, şəxsiyyətin fərdiliyindən və sosial təcrübəsindən asılı olaraq dəyişir. Dəyişən şəraitdə şəxsiyyət üzlədiyi problemli situasiyalar zamanı özünün psixoloji quruluşunda, eləcə də onların təsiri ilə psixofizioloji sistemdə baş verən dəyişmələrin

səbəblərini öyrənməli və belə situasiyalara hazır olmalıdır.

**Problemin elmi yeniliyi.** Tədqiqatlar müəyyən etmişdir ki, sosial adaptasiya avtomatik baş verən fizioloji adaptasiyadan fərqli olaraq subyektdən fəal uyğunlaşma tələb edir. O zaman uyğunlaşmanın baş verəcəyi mühitlə qarşılıqlı əlaqədə olmaq lazım gəlir. Bu halda, nəinki mühit şəxsiyyətə təsir edərək onu fəallaşdırır, həmçinin şəxsiyyətin daxili qiymətləndirməsi, sosial-psixoloji şəraitə münasibətin bütün sistemi, bütövlükdə emosional-iradi vəziyyət dəyişir. Buna görə də adaptasiya prosesi yalnız şəxsiyyətin dəyişən yeni şəraitə, yeni sosial statusa, mövqeyinə, üzvü olduğu kollektivə deyil, onun ayrı-ayrı subyektləri ilə qarşılıqlı münasibətlərinə görə də baş verir. Münasibətlər isə sosial mühitdəki situasiyaların gedişində qurulur. Problemin elmi yeniliyi onun xüsusi xidmət orqanlarındakı dəyişən şəraitdə aparılması, belə bir şəraitdə kursant şəxsiyyətinin adaptasiyasında yaranan çətinliklərin araşdırılaraq həll yollarının müəyyən edilməsidir.

**Problemin aktuallığı.** Tədqiqatçılar (K. Levin, İ.V. Belaşeva, A.V. Suvorova, İ.N. Polşakova, D. Maqnusson və b.) adaptasiya prosesini yalnız şəxsiyyətin dəyişən yeni şəraitə, yeni sosial statusa, mövqeyinə, üzvü olduğu kollektivə deyil, onun ayrı-ayrı subyektlərlə qarşılıqlı münasibətlərinə görə baş verdiyini göstərirlər. Münasibətlər isə sosial mühitdəki situasiyaların gedişində qurulur. Məsələ bundadır ki, fərdlər mühitdə üzləşdikləri müxtəlif xarakterli situasiyalara fərqli yanaşırlar. Burada, bir tərəfdən şəxsiyyətin fərdi quruluşu, digər tərəfdən situasiyanın xarakteri adaptasiyaya təsir göstərir. Ona görə də xüsusi rejimli şəraiti olan Polis Akademiyasında təhsil alan kursantların bu sistemin şəraitinə uyğunlaşmasının öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

**Problemin praktik əhəmiyyəti.** Xarakterinə görə şəxsiyyət üçün hər hansı problem yaradan situasiyalara adaptasiya onların tiplərinə görə baş verir. Situasiyaların hər biri qeyri-müəyyən görünə bilər, ancaq onların hər birini psixologiyanın dili ilə aydınlaşdırmaq mümkündür, çünki qeyd edilən problemlə bağlı çoxsaylı araşdırmalar aparılmışdır. Burada təqdim edilən materiallardan istifadə praktik baxımdan əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Левин, К. Теория поля // К.С. Холл, Г. Линдсей, Теории личности. - М.: Апрель-Пресс, - 2000. – с. 289-337.
2. Белашева И.В. Психология экстремальных и чрезвычайных состояний: учебное пособие / И.В. Белашева, А.В. Суворова, И.Н. Польшакова и т. - Ставрополь: СКФУ, -2015. - 262 с.
3. Духновский, С.В. Психологическое сопровождение подростков в критических ситуациях/ С.В. Духновский. - Курган: Курганского Гос. Ун., -2003, -124 с.
4. Mürsəlbəyova, L.V. Emosional stress şəraitində tələbələrin idrak fəallığının psixofizioloji xüsusiyyətləri:// psixol. elm. nam. avtoref. Bakı, 2008. - 18 s.
5. Стимул-реактивная теория Долларда и Миллера // К.С. Холл, Г. Линдсей, Теории личности. - М.: Апрель-Пресс, 2000. - с. 451-509.
6. Ильин, Е.М. Психология индивидуальных различий / Е.П. Ильин. - СПб: Питер, -2011. - 701 с.

***İnternet resursları***

1. http://www. storage.piter.com// Проблемная ситуация и его задача
2. https://superinf.ru/view_helpstud.php? // Социальная адаптация личности: понятие и сущность

**E-mail:** psixoloq-83@mail.ru

**Rəyçilər:** *psixol.ü.fəls. dok., dos.* **N.T. Rzayeva,**
*psixol.ü.fəls.dok, dos.* **C.Q. Hacıyev**
**Redaksiyaya daxil olub:** 18.09.2023.